## İlqar Cəmiloğlu İmamverdiyev

# Gedən Dönmür Bir Daha

*Professor Kamil Vəli Nərimanoğlu'nun Vəfatı Münasibəti İlə*

Bu gün könlümüzə yaman dərd düşdü,
Bir an gəldi, çalpoy, boran sərt düşdü,
Son gedişdən dost-qardaşlar pərt düşdü,
Əcəl gəlsə gedən dönmür bir daha.

Mərd oğultək şərəf-şanla yaşadın,
El dərdini qəlbindəcə daşıdın,
İnsanlığın dünyasında baş idin,
Əcəl gəlsə gedən dönmür bir daha.

Ad salmışdın obalara, ellərə,
Kəlamın var, salamın var dillərə.
Şirin ömrün axıb getdi sellərə,
Əcəl gəlsə gedən dönmür bir daha.

Rüzgar əsdi qəndil kimi sönmüşəm,
Bəd xəbərdən diksinmişəm, donmuşam,
Xoş xəyalım alt-üst oldu, çönmüşəm,
Əcəl gəlsə gedən dönmür bir daha.

Fələyin qurğusu, hər işi belə?!
Çarəsiz qalmışın gərdişi belə?!
Loxma tək çeynəyir, hər dişi belə,
Əcəl gəlsə gedən dönmür bir daha.

*İlqar*, nə edəsən bu dünya fani?
Anlayan insanın gözündə ani,
Sirat körpüsündə dayanıb "cani",
Əcəl gəlsə gedən dönmür bir daha.